**Cədvəl. Avto-icbari sığorta üzrə şikayət indeksi, Sentyabr 2022 - Avqust 2023**

| Sığortaçılar | Şikayət indeksi |
|---|---|
| "AzSığorta" ASC** | 26.75 |
| "İpək Yolu Sığorta" ASC*** | 2.68 |
| "Atəşgah Sığorta" ASC | 2.26 |
| "A-Qroup Sığorta" ASC***** | 1.94 |
| "Günay Sığorta" ASC**** | 1.88 |
| "Xalq Sığorta" ASC | 1.76 |
| "Bakı Sığorta" ASC | 1.17 |
| "Azərbaycan Sənaye Sığorta" ASC | 0.93 |
| "AtaSığorta" ASC | 0.92 |
| "Azərsığorta" ASC | 0.75 |
| "Meqa Sığorta" ASC | 0.43 |
| "Paşa Sığorta" ASC | 0.35 |
| "Qala Sığorta" ASC | 0.35 |
| "Naxçıvansığorta" ASC* | 0.00 |

* **"Naxçıvansığorta" ASC** üzrə indeks Naxçıvan Muxtar Respublikasının rayonlarına aid olan nəqliyyat vasitələrinə münasibətdə daxil olan şikayətlər əsasında hesablanmışdır.
** **"AZSIĞORTA" ASC-nin** könüllü müraciəti əsasında avto-icbari sığorta növünün aparılması üzrə verilən icazənin ləğv edilməsi yolu ilə lisenziyasının qüvvəsi 11 sentyabr 2022-ci il tarixindən məhdudlaşdırılmışdır. Hazırda avto-icbari sığorta üzrə mövcud müqavilələrin hüquqi qüvvəsi davam etdiyindən Şirkət baş verəcək sığorta hadisələrinin tənzimlənməsini davam etdirir. Bu səbəbdən mövcud müqavilələr qüvvəsində qaldığı müddətdə Şirkət üzrə şikayət indeksinin hesablanması aparılacaqdır.
*** **"İpək Yolu Sığorta" ASC-nin** könüllü müraciəti əsasında avto-icbari sığorta növünün aparılması üzrə verilən icazənin ləğv edilməsi yolu ilə lisenziyasının qüvvəsi 24 yanvar 2023-cü il tarixindən məhdudlaşdırılmışdır. Hazırda avto-icbari sığorta üzrə mövcud müqavilələrin hüquqi qüvvəsi davam etdiyindən Şirkət baş verəcək sığorta hadisələrinin tənzimlənməsini davam etdirir. Bu səbəbdən mövcud müqavilələr qüvvəsində qaldığı müddətdə Şirkət üzrə şikayət indeksinin hesablanması aparılacaqdır.
**** **"Günay Sığorta" ASC-nin** lisenziyası 24 iyun 2023-cü il tarixindən könüllü müraciət əsasında ləğv olunub. Hazırda avto-icbari sığorta üzrə mövcud müqavilələrin hüquqi qüvvəsi davam etdiyindən Şirkət baş verəcək sığorta hadisələrinin tənzimlənməsini davam etdirir. Bu səbəbdən mövcud müqavilələr qüvvəsində qaldığı müddətdə Şirkət üzrə şikayət indeksinin hesablanması aparılacaqdır.
***** **"A-Qroup Sığorta" ASC-nin** könüllü müraciəti əsasında avto-icbari sığorta növünün aparılması üzrə verilən icazənin ləğv edilməsi yolu ilə lisenziyasının qüvvəsi 11 avqust 2023-cü il tarixindən məhdudlaşdırılmışdır. Hazırda avto-icbari sığorta üzrə mövcud müqavilələrin hüquqi

qüvvəsi davam etdiyindən Şirkət baş verəcək sığorta hadisələrinin tənzimlənməsini davam etdirir. Bu səbəbdən mövcud müqavilələr qüvvəsində qaldığı müddətdə Şirkət üzrə şikayət indeksinin hesablanması aparılacaqdır.

**Şikayət indeksinin metodologiyası***:* Müvafiq şikayət indeksinin hesablanması üçün aşağıdakı düsturdan istifadə olunmuşdur:

$$\textbf{Şikayət indeksi} = \frac{\textit{Şikayətlər üzrə bazar payı}}{\textit{Bağlanan müqavilələr üzrə bazar payı}}$$

***Şikayətlər üzrə bazar payı* –** müvafiq sığortaçı üzrə şikayətlərin ümumi şikayətlərə nisbəti,
***Bağlanan müqavilələr üzrə bazar payı* –** müvafiq sığortaçı üzrə bağlanan müqavilələrin sayının ümumi müqavilələrin sayına nisbəti.
**Şikayət indeksinin izahı:** İndeksin 1.00-dən aşağı olması həmin portfel üzrə xidmət səviyyəsinin digər şirkətlərlə nisbətdə yaxşı olduğunu, lakin 1.00-i üstələməsi xidmət səviyyəsinin digər şirkətlərə nəzərən aşağı olduğunu göstərir.